Azərbaycan.-2024.- 21 iyul (№ 152).- S.11.

ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Birinci Qarabağ müharibəsinin şəhidləri torpağa tapşırılıb

## Sumqayıt



Birinci Qarabağ müharibəsində itkin düşən və 31 ildən sonra şəxsiyyəti müəyyənləşdirilən şəhid Rəhim Əlyar oğlu Rəsulovun nəşinin qalıqları bu gün Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn edilib.

Vida mərasimində Sumqayıt Şəhər İcra Hakimiyyəti, hüquq-mühafizə orqanları, idarə, müəssisə, təşkilat rəhbərləri və ictimaiyyət nümayəndələri, müharibə veteranları, şəhidin qohumları və yaxınları iştirak ediblər.

Cənazə namazı qılınıb, dualar oxunub. Dəfn zamanı hərbi orkestrin müşayiətilə Dövlət himni ifa olunub və yaylım atəşi açılıb.

Şəhidin tabutuna bürünmüş Azərbaycan bayrağı qardaşı Soltan Rəsulova təqdim edilib.

Qeyd edək ki, şəhid Rəhim Əlyar oğlu Rəsulov 1967-ci il dekabrın 19-da Sumqayıtda anadan olub. O, hərbçi olaraq Qarabağda gedən döyüşlərdə iştirak edib. 1991-ci il dekabrın 28-də Kərkicahan ərazisində düşmənlə gedən şiddətli döyüş zamanı hərbi xidmət borcunu yerinə yetirərkən şücaət göstərərək şəhidlik zirvəsinə ucalıb.

Rəhim Rəsulov Yevlax rayonunun Yedili kəndinin Şəhidlər xiyabanında naməlum şəhid kimi dəfn edilən şəhidlərimizdən biri olub.

## Yevlax



Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan Bəxtiyar Əliş oğlu Hümbətovun meyitinin qalıqları Yevlaxda dəfn olunub.

Rayon sakinlərinin, şəhidin ailə üzvlərinin, Yevlax Şəhər İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərlərinin və əməkdaşlarının, ictimaiyyət nümayəndələrinin iştirakı ilə vida mərasimi keçirilib.

Cənazə namazından sonra şəhid Bəxtiyar Hümbətov yaylım atəşilə Yevlax şəhər Şəhidlər xiyabanında dəfn edilib. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil, gül dəstələri düzülüb. Tabuta bükülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin anası Səyyarə Hümbətovaya təqdim edilib.

Qeyd edək ki, 1974-cü ildə Yevlax şəhərində anadan olan Bəxtiyar Hümbətov Birinci Qarabağ müharibəsində Kəlbəcər rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edib. 1994-cü il fevral ayının 14-də Murovdağ istiqamətində itkin düşüb.

## İmişli

Birinci Qarabağ müharibəsində döyüşən oğlu Fəqan Vəliyevdən xəbər almaq üçün döyüş əməliyyatları olan əraziyə yollanan İbrahim Ələşrəf oğlu Vəliyev 1993-cü il avqustun 23-də Füzuli rayonu Alxanlı-Qaraxanbəyli kəndləri ərazisində itkin düşmüşdü.



31 ildən sonra şəxsiyyəti dəqiqləşdirilən İbrahim Vəliyevin nəşinin qalıqları doğma yurdu İmişlidə torpağa tapşırılıb.

İbrahim Vəliyevin nəşi İmişli sakinləri tərəfindən izdihamla qarşılanıb, Muradxanlı kəndində ailəsinin yaşadığı evə gətirilərək vida mərasimi təşkil olunub, cənazə namazı qılınıb. Mərasimdə ailə üzvləri ilə bərabər rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Daha sonra nəşin qalıqları dəfn üçün Muradxanlı kənd məzarlığına gətirilərək yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb.

Qeyd edək ki, İbrahim Ələşrəf oğlu Vəliyev 1924-cü ildə İmişli rayonunda dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı döyüşlərdə iştirak edən oğlundan xəbər almaq məqsədilə döyüş əməliyyatlarının olduğu bölgəyə gedərkən Füzuli rayonu Alxanlı-Qaraxanbəyli kəndləri ərazisində itkin düşüb. Onun nəşinin qalıqları isə Ağdam rayonunun Əfətli kənd məzarlığında aşkar olunub.

*AZƏRTAC*